Maliyyə Nazirliyinin 19 iyun
2017-ci il tarixli I-66 nömrəli
əmri ilə təsdiq edilmişdir.

**“Azərbaycan Respublikasının Maliyyə Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 410-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə – öz səlahiyyətləri daxilində maliyyə naziri, onun birinci müavini və müavinləri, aparatın rəhbəri, Nazirliyin aparatının müvafiq şöbə müdiri və onun müavini, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəisi və onun müavinləri, həmin Xidmətin şöbə müdirləri, sektor müdirləri, regional maliyyə müfəttişliklərinin rəisləri.

2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 411-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə – öz səlahiyyətləri daxilində maliyyə naziri, onun birinci müavini və müavinləri, aparatın rəhbəri, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəisi və onun müavinləri, həmin Xidmətin şöbə müdirləri, sektor müdirləri, regional maliyyə müfəttişliklərinin rəisləri, Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyinin direktoru və onun müavinləri, həmin Agentliyin şöbə müdirləri, sektor müdirləri.

3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 457-ci, 458-ci və 598-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə - öz səlahiyyətləri daxilində maliyyə naziri, onun birinci müavini və müavinləri, aparatın rəhbəri, Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidmətinin rəisi, onun müavinləri.

4. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 462-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə öz səlahiyyətləri daxilində:
4.1. qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri üzrə - maliyyə naziri, onun birinci müavini və müavinləri, aparatın rəhbəri, Nazirliyin aparatının Maliyyə xidmətləri üzrə siyasət şöbəsinin müdiri, müdir müavini, həmin şöbənin sektor müdirləri;
4.2. büdcə təşkilatları və büdcədənkənar dövlət fondları üzrə - maliyyə naziri, onun birinci müavini və müavinləri, aparatın rəhbəri, Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin direktoru, onun müavinləri;
4.3. kommersiya təşkilatları və digər mühasibat uçotu subyektləri üzrə - maliyyə naziri, onun birinci müavini və müavinləri, aparatın rəhbəri, Nazirliyin aparatının Uçot siyasəti şöbəsinin müdiri, onun müavini, həmin şöbənin sektor müdirləri.